

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır


# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 38 (21.448)

26 fevral 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Xocalı faciəsi 2 əsrdən çoxdur ki, ermənilərin xalqımıza qarşı törətdiyi etnik təmizləmə və soyqırımı siyasətinin ən qanlı səhifəsidir. Təkcə xalqımıza qarşı deyil, bütün bəşəriyyətə qarşı törədilmiş dəhşətli faciənin baş verməsindən 24 il ötür. Öz miqyasına və dəhşətlərinə görə tarixdə misli-bərabəri olmayan Xocalı soyqırımını törədərkən erməni şovinistləri qəddarlıqda heç də faşistlərdən geri qalmadıqlarını bir daha təsdiqləyiblər. Xocalı şəhərinin sakinləri bu amansız gündə xalqımıza xas olan mərdlik, igidlik nümayiş etdirib, özlərini əsl qəhrəman kimi apararaq erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə son nəfəslərinə qədər vuruşub, düşmən qarşısında əyilməyiblər. Ümummilli liderimiz Heydər Əliyev bu barədə demişdir: ***"Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid oldular. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır – vəhşiliyin görünməmiş bir təzahürüdür".***

## Xocalı soyqırımı insanlıq əleyhinə törədilmiş cinayətdir



Tarixə qısa nəzər salsaq, görərik ki, Xocalı faciəsinə aparan yol hələ XX əsrin əvvəllərindən başlayıb. Bu yaşayış məntəqəsinin azərbaycanlı əhalisi bir əsrdə 3 dəfə qırğınlara məruz qalıb. Xocalı birinci dəfə 1905-ci ildə, sonra isə 1918-ci ildə yandırılıb. Nəhayət, 1992-ci ildə Xocalı üçüncü dəfə, bu dəfə daha qanlı, daha dəhşətli faciəyə düçar oldu. Mühüm strateji əhəmiyyət daşıyan Xocalı ermənilərin yolu üstündə böyük bir maneə idi. Dağlıq Qarabağa gedən həm avtomobil, həm də dəmir yolunun üzərində yerləşən Xocalı strateji dəhliz rolunu oynayırdı. Bu ərazini zəbt etmədən Dağlıq Qarabağa nəzarət etmək qeyri-mümkün idi. Xocalı Xankəndidən 10 kilometr cənub-şərqdə, Qarabağ dağının silsiləsində və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşir. Qarabağdakı yeganə hava limanı da məhz Xocalıda idi. Ermənilərin əsas istəklərindən biri məhz buradakı hava limanı vasitəsilə Ermənistanla daha rahat əlaqə yaradılmasına nail olmaq idi. Buna görə də Xocalının işğalı düşmən üçün vacib amilə çevrilmişdi.

Xocalı həm də bu ərazilərin tarixən azərbaycanlılara məxsus olduğunu sübut edən tarix məbədgahı idi. Qarabağın tarixi və mədəni irsimizi özündə yaşadan mühüm abidələrinin bir qrupu Xocalı şəhəri ətrafında yerləşir. Bu abidələr Tunc dövrünün bütün mərhələlərini izləməyə imkan verir. Onların arasında Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinə aid Xocalı kurqanlarının özünəməxsus yeri vardır. Xüsusilə tunc silahları və başlıca olaraq boz rəngli keramika məmulatı ilə fərqlənən bu mədəniyyətə məxsus abidələr ilk dəfə Xocalı yaxınlığında, daha sonra isə Qarabağın böyük bir hissəsində və Gədəbəydə aşkar olunub, əsas yaşayış məntəqələrinin adına görə Xocalı-Gədəbəy mədəniyyəti adlandırılıb. Araşdırmalar zamanı müəyyən edilib ki, Xocalı-Gədəbəy mədəniyyəti e.ə. V-III minilliklərdə Azərbaycanda formalaşan Kür-Araz mədəniyyətinin və ondan sonra burada mövcud olan Qarabağ mədəniyyətinin varisidir. Məhz buna görə də Xocalının ərazisi siklopları, kurqanları və digər abidələri ilə Azərbaycanın qədim tarixini yaşadırdı. Deməli, məqsəd həm də azərbaycanlılara məxsus bu mədəniyyəti yer üzündən silmək olub. Təsadüfi deyil ki, Xocalı şəhəri işğal edilən kimi onun ətrafında olan və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığı xüsusi texnika ilə darmadağın edilib.

Hər vəchlə bu qədim Azərbaycan torpağını ələ keçirməyə, burada minilliklərin tarixi izlərini özündə yaşadan mədəniyyət abidələrini yer üzündən silməyə və əhalisini didərgin salmağa çalışan erməni vandalları 1991-ci ilin oktyabrında Tuğ və Sələkətin kəndlərini işğal etdilər. Bunun ardınca Xocavənd də erməni işğalçılarının nəzarəti altına keçdi. Ancaq ermənilər üçün ciddi maneə hələ də qalmaqda idi. Belə ki, erməni silahlı dəstələri azərbaycanlıların yaşadığı digər kəndlərə hücuma keçəndə Xocalıdan atəşə tutulurdu. 1992-ci ilin yanvarında ermənilər Xankəndidə yerləşən 366-cı alayın bilavasitə iştirakı ilə Xocalı ətrafındakı Axullu, fevral ayında isə Malıbəyli və Quşçular kəndlərini işğal etdilər. Həmin kəndlərin işğalından bir neçə gün sonra Dağlıq Qarabağın ən iri yaşayış məskənlərindən olan Qaradağlı 366-cı motoatıcı alayın, eləcə də müxtəlif xarici ölkələrdən gətirilmiş muzdlu döyüşçülərin hesabına ermənilərin əlinə keçdi. Xocalı 1991-ci il oktyabrın 30-dan blokada vəziyyətində yaşayıb. Şəhərə yeganə nəqliyyat vasitəsi kimi vertolyot gedə bilib. Lakin Şuşa səmasında mülki vertolyotun vurulmasından, vertolyotun içindəki 40 azərbaycanlının həlak olmasından sonra şəhərlə hava əlaqəsi də kəsilib. Sonuncu vertolyot isə 1992-ci il yanvar ayının 28-də Xocalıya enmişdi.

Həmin dövrdə hər gün toplardan, ağır texnikadan atəşə tutulan Xocalını əhatə edən Daşbulaq, Mehdikənd, Ballıca, Həsənabad, Pirəməki, Noraguh və Mirzəcan kəndlərində xeyli qüvvə toplanmışdı. Avtomat və pulemyotlarla silahlanmış yüzlərlə erməni yaraqlısının toplandığı bu kəndlərdə çox sayda raket qurğuları və zirehli texnikalar vardı. Əsas qüvvələr isə Xankəndidə və Əsgəran istiqamətində yerləşdirilmişdi. Lakin bütün çətinliklərə, silah-sursat çatışmazlığına, canlı qüvvənin azlığına baxmayaraq, qəhrəman Xocalı döyüşçüləri düşmənə qarşı inadlı mübarizə aparırdılar. Təhlükəli vəziyyətə baxmayaraq, Xocalı sakinlərinin şəhəri tərk etməməsi, yerli müdafiə qüvvələrinin ciddi müqaviməti Naxçıvanda başı daşa dəymiş qaniçən erməniləri hiddətləndirmişdi. Bu nifrət, qəddarlıq, vandalizm 1992-ci il fevralın 25-dən 26-na keçən gecə özünü daha qabarıq şəkildə büruzə verdi. Ermənilər Xocalıda misli-görünməmiş soyqırımı törətdilər. Mühasirədən çıxıb xilas olmağa çalışan dinc sakinləri isə yollarda, meşələrdə pusqu quraraq xüsusi amansızlıqla qətlə yetirdilər. Kütləvi qırğın nəticəsində 613 nəfər əliyalın dinc sakin öldürüldü. Onlardan 106-sı qadın, 63-ü uşaq, 70-i qoca idi. 1275 dinc sakinimiz əsir götürüldü ki, onların 150-nin taleyindən hələ də heç bir xəbər yoxdur. Bu dəhşətli faciə nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi.

Xocalı soyqırımının şahidi olmuş müxtəlif xarici ölkə jurnalistləri onu bəşəriyyətin böyük faciəsi adlandırıblar. Məsələn, Fransadan olan jurnalist Jan-İv Yunet yazmışdı: *"...Biz Xocalı faciəsinin şahidi olduq, yüzlərlə həlak olmuş dinc əhalinin – qadınların, kişilərin, qocaların və Xocalı müdafiəçilərinin meyitlərini gördük. Bizə helikopter verdilər, biz quş uçuşu hündürlüyündən Xocalı ətrafında nə gördüksə, hamısını çəkirdik. Bu, dəhşətli mənzərə idi. Mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı barədə çox eşitmişəm, lakin ermənilər 5-6 yaşlı uşaqları, dinc əhalini öldürərək onları geridə qoyublar"*. İngiltərəli jurnalist Rori Patriks isə qeyd edirdi ki, *"Xocalıdakı faciənin miqyasını dünya ictimaiyyətinə anlatmaq çox çətindir. Biz jurnalistlər helikopterlə çətinliklə də olsa, Naxçıvanik kəndinin yaxınlığına gələ bildik. Burada onlarla eybəcər hala salınmış meyit gördük. Onlar Xocalını müdafiə edən döyüşçülər deyildi, bu, Azərbaycan şəhərinin dinc əhalisi – qatillərin güllələdikləri uşaqlar, qadınlar, qocalar idi"*. Rusiyalı hərbçi Leonid Kravetsin dediyi faktlar da insanı dəhşətə gətirir: *"...Fevralın 26-da mən Stepanakertdən yaralıları aparırdım və geriyə Əsgəranın üstündən uçdum. Gözümə aşağıda nəsə birtəhər parlaq ləkələr dəydi. Bir az aşağıya endim və burada mənim bortmexanikim qışqırdı: "Baxın, orada qadınlar və uşaqlar var". Bəli, artıq elə mən özüm də görürdüm, təpənin döşündə səpələnmiş iki yüzə qədər meyit, onların arasında şübhəli adamlar gəzişirdi... Sonra biz uçduq, istədik meyitlərdən götürək. Bizimlə yerli milis kapitanı var idi, adını unutmuşam. O, orada başı parçalanmış dördyaşlı oğlunu tapdı və yazıq həmin anda huşunu itirdi. Bizə atəş açılana qədər götürməyə macal tapdığımız digər uşağın isə başı kəsilmişdi. Mən hər tərəfdə eybəcər hala salınmış qadın, uşaq, qoca meyitləri gördüm..."*

Xalqımıza qarşı bu qədər vandalizm aktları həyata keçirilsə də, 1993-cü ilə qədər Azərbaycanda Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilməsi istiqamətində heç bir tədbir görülməyib. Yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilib, bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülüb. 1994-cü ilin fevralında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Xocalıda baş vermiş hadisələri geniş təhlil edərək "Xocalı Soyqırımı Günü haqqında" Qərar qəbul edib, BMT-yə və dünya dövlətlərinə müraciət edərək erməni terrorizminə qarşı qəti tədbirlər görməyə çağırıb. Qəbul edilmiş qərara əsasən, bəşər tarixinin qanlı səhifələrindən olan Xocalı hadisələri ilə əlaqədar hər il fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan olunub. Ulu öndər Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il fevralın 25-də imzaladığı Sərəncamla hər il fevral ayının 26-sı saat 17$^{00}$-da ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq aləmdə Xocalı soyqırımının tanıdılması istiqamətində ardıcıl iş aparılır. Son illər Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətlərin beynəlxalq miqyasda ifşası sahəsində xeyli iş görülüb, xarici dillərdə kitablar nəşr olunub, filmlər nümayiş etdirilib, Xocalı mövzusu müxtəlif beynəlxalq tədbirlərdə gündəmə gətirilib, bununla bağlı internet saytları yaradılıb. Heydər Əliyev Fondu tərəfindən 2008-ci ildə "Xocalıya ədalət" Beynəlxalq İnformasiya və Təşviqat Kampaniyasının təsis edilməsi bu məqsədlə atılan mühüm addımlardandır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2014-cü il 13 fevral tarixli "Xocalıya ədalət" kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən, bu tədbirlərin beynəlxalq səviyyədə daha da genişləndirilməsi qərara alınıb. Bu istiqamətdə aparılan səmərəli işin nəticəsidir ki, hər dəfə faciənin ildönümündə dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, erməni vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər, materiallar nümayiş etdirilir. Dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap olunur, televiziya və radiolarda verilişlər hazırlanır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Xocalı soyqırımının iyirminci ildönümü haqqında" 2012-ci il 17 yanvar tarixli Sərəncamında da Xocalı həqiqətlərinin bütün dünyaya çatdırılması bir vəzifə kimi qarşıya qoyulub: ***"Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi qiymətini almalıdır".***

Aparılan uğurlu xarici siyasət nəticəsində dünya dövlətləri ermənilərin törətdikləri bu soyqırıma öz münasibətlərini bildirir və Xocalıda törədilmiş qətliamı kəskin pisləyirlər. Hazırda Pakistan, Meksika, Çexiya, Kolumbiya, Bosniya və Herseqovina, Peru, Honduras, Sudan parlamentləri, İslam Əməkdaşlıq Təşkilatı Xocalı faciəsini soyqırımı və Azərbaycana qarşı cinayət aktı kimi tanıyıblar. ABŞ-ın Montana ştatının qubernatoru Stiv Bullok bu il fevralın 17-də rəsmi bəyanat imzalayaraq Xocalı soyqırımının ildönümü ilə bağlı Montana sakinlərinə çağırış edib. O, bəyanatda ştat sakinlərini 26 fevral tarixini "Xocalını anma günü" kimi tanımağa və yad etməyə çağırıb. Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğuna daxil olmuş sənəddə Xocalı qətliamı müharibə dəhşətlərindən biri kimi pislənilib. Sənədin sonunda 2016-cı il 26 fevral tarixinin Montanada "Xocalını anma günü" elan edildiyi vurğulanır. Beləliklə, bu sənədlə ABŞ-da Xocalı soyqırımını tanıyan ştatların sayı 20-yə çatıb.

Bu gün Dağlıq Qarabağ probleminin ədalətli həlli uğrunda Azərbaycan dövlətinin həyata keçirdiyi ardıcıl, prinsipial və qətiyyətli siyasi xətt, Azərbaycan Respublikasının konstruktiv mövqeyi dünya dövlətlərinə yaxşı bəllidir. Problemin sülh və danışıqlar yolu ilə həll olunmasına sadiq qalan Azərbaycan artıq məsələnin hərbi müstəvidə qısa zaman ərzində həlli üçün də Ali Baş Komandanın əmrinə hazır olan müzəffər orduya malikdir. Tarix ədalətsizliyi sevmir. Azərbaycan Silahlı Qüvvələrinin işğal altında qalan torpaqlarımızı azad edəcəyi gün uzaqda deyil. Bu, bizim həm də Vətən qarşısında mənəvi haqqımızdır. Haqqımızı isə ordumuz təmin edəcək! Buna gündən-günə inkişaf edən qüdrətli Azərbaycan və onun ordusu təminat verir!

**"Şərq qapısı"**

## ABŞ-ın Milvauki vilayətində Xocalı soyqırımı ilə əlaqədar Hökumət Bəyannaməsi qəbul edilmişdir

Amerikalı jurnalist və tədqiqatçı Peter Tase Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması yönündə səmərəli fəaliyyət göstərir. Peter Tase Amerika Birləşmiş Ştatlarının Milvauki vilayətinin rəhbəri Chris Abeleyə Xocalı soyqırımı ilə bağlı müraciət göndərmişdir. Peter Tasenin bu müraciətini nəzərə alan ABŞ-ın Milvauki vilayətinin rəhbəri Xocalı soyqırımı ilə əlaqədar Hökumət Bəyannaməsi qəbul etmişdir.

## Peter Tasenin Xocalı faciəsi ilə bağlı cənab Chris Abeleyə MÜRACİƏTİ

Milvauki vilayətinin rəhbəri cənab Chris Abele

Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında ikitərəfli strateji münasibətlərin tədqiqatçısı kimi, Xocalı soyqırımının 24-cü ildönümünə dəstək üçün bu qətnamənin layihəsini sizə təqdim etməkdən şərəf duyuram. Xocalı soyqırımı 25-26 fevral 1992-ci il tarixdə Azərbaycan Respublikasının ərazisində Azərbaycanın dinc əhalisinə qarşı törədilmişdir. Ümid edirəm ki, sizin himayəniz və rəhbərliyiniz ilə Milvauki vilayətinin Nəzarətçilər Şurasının növbəti iclasında bu qətnamə şuranın üzvlərinə təqdim olunacaq.

25 fevral 1992-ci il tarixdə gecə saatlarında erməni silahlı qüvvələri Sovet İttifaqının dəstəyi ilə Xocalı şəhərinə hücum etmişdir. Şəhəri üç tərəfdən mühasirəyə alan erməni döyüşçüləri daha sonra şəhərə daxil olmuşlar. Şəhəri tərk etmək üçün yalnız bir yol açıq idi və dinc əhalini qorumaq üçün ərazidə az sayda Azərbaycan əsgərləri var idi. Gecəyarısı şəhərdə olan mülki əhali öz yerlərindən qaçdıqları zaman erməni hərbçiləri tərəfindən atəşə tutulmuşlar. Növbəti gün jurnalistlər bu ərazidə dəhşətli səhnə ilə qarşılaşmışlar. Ərazi cəsədlərlə dolu idi. Öldürülmüş insanların üzərində qəddarlıq izləri var idi. Müşahidəçilərdən biri güllə yarasının ətrafında toz qeydə almışdır. Bu da onu göstərir ki, insanların əksəriyyətinə yaxın məsafədən atəş açılıb. Digər xarici jurnalistlər işgəncələrin geniş şəkildə sübutunu sənədləşdirmişlər. Bu hücum nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca və qarı olmaqla – 613 nəfər dinc sakin qətlə yetirilmişdir.

Beynəlxalq ictimaiyyət bu vəhşilikləri pisləyir. Ermənistan tərəfindən bəziləri iddia edir ki, bu qırğını törədən erməni qoşunları əmrlərə qarşı hərəkət edib. Digər bir qrup yaxın məsafədən törədilmiş cinayətlərin geniş sübutuna baxmayaraq, mülki əhalinin yanında duran Azərbaycan döyüşçülərini günahlandırır. Hələ də qərarlı olaraq bu faciənin arxasında duranlar vardır. Ermənistan hərbi liderinin sözlərinə görə, "Xocalıya qədər Azərbaycan əhalisi fikirləşirdi ki, ermənilər mülki əhaliyə qarşı əl qaldırmayacaq. Biz bu "stereotipi" qırdıq və bunlar baş verdi". Ermənistanın prezidenti Serj Sarkisyanın adı da bu qırğında çəkilir. Ermənistan prezidenti Serj Sarkisyan bu faciəni qisas aktı kimi təsvir etsə də, Ermənistan rəsmi olaraq bu faciəni inkar edir. 1992-ci ildə baş vermiş Xocalı soyqırımı beynəlxalq şəkildə hələ də tam olaraq tanınmayıb. Yalnız faciə qurbanlarının xatırlanması ilə yekunlaşır.

Bu qətnamə 26 fevral 2016-cı il tarixdə 24-cü ildönümü qeyd olunacaq Xocalı soyqırımının 600 qurbanının xatirəsini şərəfləndirəcək. Milvauki vilayəti və onun Nəzarətçilər Şurası ABŞ-Azərbaycan icmasına qoşularaq 2016-cı ildə 24-cü ildönümü qeyd olunacaq Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edəcək və hörmət olaraq öz dərin və çox səmimi təəssüfünü ifadə edəcəkdir.

**Hörmətlə,**
**Peter TASE**
**30 yanvar 2016-cı il**

## Peter Tasenin müraciəti əsasında qəbul edilən Hökumət Bəyannaməsi

25-26 fevral 1992-ci ildə xarici qüvvələr Azərbaycanın Xocalı şəhərinə hücum edib.

Bu hücumlar nəticəsində qadınlar, uşaqlar və yaşlılar da daxil olmaqla çox sayda insan işgəncələrə məruz qalıb və itkin düşüb.

Bu hücumlar nəticəsində çox sayda mülki vətəndaş sağlamlığını itirib, əsir götürülüb və ailələrini itirib.

Bu faciəni heç bir dövlətin rəsmi şəkildə üzərinə götürməməsinə baxmayaraq, beynəlxalq ictimaiyyət bu qəddarlığı sərt və kəskin şəkildə qınayır.

1992-ci il Xocalı soyqırımının Azərbaycan xalqına təsirini nəzərə alaraq, amansız qəddarlığa məruz qalmış günahsız faciə qurbanlarının tanınması və xatırlanmasının önəmini vurğulayırıq.

Bu faciənin ildönümündə demokratiya və sakinlərin qanı bahasına qazanılan azadlığın əhəmiyyətini vurğulayaraq mən Milvauki vilayətinin rəhbəri **CHRİS ABELE** 26 fevral 2016-cı ildə 24-cü ildönümü qeyd ediləcək

**XOCALI SOYQIRIMINI**

tanıyır və Milvauki vilayətinin insanlarını və Azərbaycan xalqını faciə qurbanlarının xatirəsini birgə yad etməyə və bütün dünyada sülhü dəstəkləməyə çağırıram.

**Chris ABELE**
**Milvauki vilayətinin rəhbəri**



MILWAUKEE COUNTY

Executive Proclamation

*WHEREAS*, on the night of February 25-26, 1992, foreign forces attacked the Azerbaijani town of Khojaly; and

*WHEREAS*, these attacks resulted in many tortured and missing civilians, including women, children, and the elderly; and

*WHEREAS*, many civilians suffered from negative health effects due to these attacks, were taken hostage, and lost their families; and

*WHEREAS*, the international community's condemnation of this atrocity was swift and strong, although no country has formally taken responsibility for the tragedy; and

*WHEREAS*, given the impact of the 1992 Khojaly Massacre to the people of Azerbaijani people, it is only appropriate that the victims be properly recognized and remembered; and

*WHEREAS*, on the anniversary of this tragedy, it is important to reflect upon the importance of democracy and the tenants upon which freedom is built; now, therefore

*I, CHRIS ABELE*, County Executive of Milwaukee County, recognize February 25-26, 2016 to be the 24th anniversary of

**The Khojaly Massacre**

and encourage the people of Milwaukee County and Azerbaijan join in honoring the lives and memories of the victims and supporting peace around the world.

Chris Abele
Milwaukee County Executive

## Xocalı soyqırımına həsr olunmuş internet aksiya və konfrans



*Naxçıvan Dövlət Universitetində Xocalı soyqırımının 24-cü ildönümünə həsr olunmuş silsilə tədbirlər internet aksiya və konfransla yekunlaşıb.*

Universitetin Tələbə-Gənclər Təşkilatının sədri Arzu Abdullayev internet aksiyanın məqsəd və vəzifələri haqqında məlumat verərək bildirib ki, iki gün davam edəcək aksiya zamanı dünyanın 50 ölkəsinin 500-dən çox elektron poçt ünvanına Azərbaycan həqiqətləri çatdırılacaq.

Sonra internet aksiyaya start verilib. Xarici ölkə vətəndaşları – Nigeriya, Cənubi Koreya, Banqladeş, qardaş Türkiyədən olan tələbələrin də fəal iştirakı ilə Xocalı faciəsi, Azərbaycan həqiqətləri mətnlər, fotoşəkillər və slaydlar şəklində dünyaya çatdırılıb.

Xocalı soyqırımına həsr olunmuş konfransda universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bu faciənin Ermənistanın Azərbaycana qarşı yürütdüyü soyqırımı və deportasiya siyasətinin, ozamankı Azərbaycan iqtidarının qətiyyətsiz və laqeyd fəaliyyətinin ağır nəticəsi olduğunu diqqətə çatdırıb.

Ali məktəbin tərbiyə işləri üzrə prorektor, tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov "Xocalı soyqırımı beynəlxalq hüquq müstəvisində" mövzusunda məruzə edərək bəşər tarixində görünməmiş qətliam olan Xocalı soyqırımı haqqında ətraflı məlumat verib. Bildirilib ki, Xocalı hadisələri BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli Konvensiyasına, Nürnberg Hərbi Tribunalının Nizamnaməsinə, Beynəlxalq Cinayət Tribunalının Yuqoslaviya üzrə Nizamnaməsinə və digər sənədlərə əsasən, soyqırımı aktı kimi qəbul edilməlidir. Xocalı soyqırımının Pakistan, Meksika, Kolumbiya, Rumıniya, Çexiya, ABŞ-ın 20 ştatı tərəfindən rəsmi şəkildə tanınması, bir çox dövlətlərin parlamentlərində müzakirə mövzusu olması Azərbaycanın haqq səsinin dünyaya çatdırılması deməkdir.

Məruzəçi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən həyata keçirilən "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində görülən işlər barədə də məlumat verib. Qeyd olunub ki, nəinki xalqımıza, bütünlükdə sivilizasiyaya qarşı yönəldilmiş bu cinayəti törədənlər öz layiqli hüquqi cəzalarını almalıdırlar.

Sonda Xocalı soyqırımına həsr edilmiş ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

**Mehriban SULTAN**

## Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb



***Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Xocalı soyqırımı ilə əlaqədar anım tədbiri keçirilib.***

Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının törədilməsindən 24 il ötür. Xocalı faciəsi Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini işğal etmək məqsədilə Ermənistanın apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımıdır.

Qeyd edilib ki, ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı aktı kimi siyasi və hüquqi qiymət verilib. Ulu öndər Heydər Əliyevin sayəsində Xocalı soyqırımının dünyaya tanıdılması istiqamətində mühüm işlər görülüb. Ümummilli lider hər il faciənin ildönümündə Xocalı soyqırımı ilə bağlı xalqa müraciət edib, faciənin bütün azərbaycanlıların qan yaddaşına çevrildiyini vurğulayıb.

Bu gün ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev Xocalı soyqırımının dünya ictimaiyyətinə və dövlətlərinə tanıdılması istiqamətində ardıcıl və davamlı iş aparır.

Sonra Babək Rayon Xalq Teatrı tanınmış yazıçı-dramaturq Hüseynbala Mirələmovun "Xəcalət" əsəri əsasında hazırlanmış tamaşanı göstərib.

Tamaşadan sonra tədbir iştirakçıları Xocalı soyqırımına həsr olunmuş sərgiyə baxıblar.

* * *



***Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Təhsil Şöbəsi ilə birlikdə Xocalı soyqırımının 24-cü ildönümü münasibətilə tədbir keçirmişdir.***

Tədbiri Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov açaraq bildirmişdir ki, Xocalı soyqırımı xalqımıza qarşı bir neçə əsr əvvəl başlanan və həyata keçirilən erməni təcavüzünün davamı və tərkib hissəsidir. 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə erməni şovinistlərinin məkrli işğal və ilhaq siyasəti nəticəsində həyata keçirilən sistemli deportasiya və genosid siyasəti 1988-1989-cu illərdə özünün ən yüksək nöqtəsinə çatmış, nəticədə, bu gün Ermənistan adlanan əzəli Azərbaycan torpaqlarında bir nəfər də olsun soydaşımız qalmamışdır. Bu tarixi faktlar sübut edir ki, Xocalı faciəsi təsadüfi olmamış, azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin davamı idi.

Rayon Təhsil Şöbəsinin müdiri Adəm Qasımov çıxış edərək demişdir ki, bu gün qarşımızda duran ən böyük vəzifə itirilən torpaqlarımızı geri qaytarmaq, düşmənə layiqli cavab verməkdir. Artıq düşmənin cavabını verməyə hazır və qadir ordumuz var.

Vurğulanmışdır ki, hər bir Vətən övladı ermənilərin xəbis niyyətlərini ifşa etməli, Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması üçün əlindən gələni əsirgəməməlidir.

Sonra Culfa şəhər 2 nömrəli tam orta məktəbin şagirdlərinin hazırladıqları ədəbi-bədii kompozisiya nümayiş etdirilmiş, "Yaddan çıxmaz Qarabağ, Xocalı soyqırımı" sərgisinə baxış olmuşdur.

* * *



***Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı da Xocalı faciəsinin 24-cü ildönümünə həsr olunan tədbir keçirib. Tədbir iştirakçıları əvvəlcə Xocalı faciəsinin dəhşətlərini əks etdirən sərgiyə baxıblar.***

Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva çıxış edib.

Qeyd edilib ki, bu soyqırımı aktı Azərbaycan və ümumən insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil olub. Erməni quldurları Xocalı şəhərini yerlə yeksan edib, köməksiz, dinc əhalini amansızlıqla qətlə yetiriblər. Xocalı faciəsinə ilk dəfə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hüquqi-siyasi qiymət verib.

Bu gün "Xocalıya ədalət" kampaniyası çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər Xocalı soyqırımının bütün dünya ölkələrində tanınmasına imkan verir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı İdarə Heyətinin üzvü Hacırəddin Mehbalıyev, təşkilatın Qadınlar Şurasının sədri Xəzəngül Orucova və Heydər Əliyev adına Gənclər Birliyinin üzvü Amar Qasımov çıxış ediblər. Çıxışlarda bildirilib ki, Xocalı hadisələri xalqımızın qəhrəmanlıq və vətənpərvərlik salnaməsidir. Onlarla igid azərbaycanlı bu qeyri-bərabər döyüşlərdə misilsiz qəhrəmanlıq və rəşadət nümunəsi göstərib.

Sonra şagirdlərin ifasında şeirlər bədii qiraət edilib və tədbir iştirakçıları Xocalı soyqırımına həsr olunan sənədli filmə baxıblar.

**Xəbərlər şöbəsi**

# Xatirə Muzeyi ilə məktəblər arasında interaktiv əlaqə yaradılıb

***Fevralın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Xocalı soyqırımı ilə əlaqədar Tədbirlər Planına uyğun olaraq Rabitə və Yeni Texnologiyalar Nazirliyi və Təhsil Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikanın 200-dən çox məktəbi və Heydər Əliyev adına Hərbi Lisey ilə Naxçıvan şəhərindəki Xatirə Muzeyi arasında interaktiv əlaqə yaradılıb.***





Heydər Əliyev adına Hərbi Lisey

Xocalı faciəsinin 24-cü ildönümü ilə əlaqədar keçilən dərsdə muzeyin direktor əvəzi Aynurə Məhərrəmova muzey haqda şagirdlərə ətraflı məlumat verərək bildirib ki, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş həmyerlilərimizin xatirəsini əbədiləşdirmək məqsədilə yaradılmış muzeyin fondunda 1500 eksponat saxlanılır ki, onlardan 400-ə yaxını ekspozisiyada nümayiş etdirilir. Nümayiş etdirilən eksponatların hər biri tariximizin qanlı və şanlı səhifələrini özündə əks etdirir. Burada, əsasən, şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda Azərbaycan Respublikasının Milli qəhrəmanlarının, Sovet İttifaqı qəhrəmanlarının fotoşəkilləri və onlara aid materiallar qorunur. Muzeydəki 1918-1920-ci illərdə Naxçıvanda ermənilərin törətdikləri qanlı cinayətlər, 1937-1938-ci illərin repressiya qurbanları, 1941-1945-ci illər müharibəsinin Naxçıvandan olan iştirakçıları, eyni zamanda ən yeni tariximizdə baş vermiş 20 Yanvar, Xocalı soyqırımı hadisələri haqqında eksponatlar bu tarixi dövrlər haqqında ətraflı məlumatlar verir. Muzeydə eksponatların xalqımızın soyqırımı tarixi üzrə dövrləşdirilərək yerləşdirilməsi gənc nəslin qəhrəmanlıq tariximiz haqqında ətraflı məlumat almasına şərait yaradır.



Şahbuz rayon Biçənək kənd tam orta məktəbi



Babək rayon Nehrəm kənd 2 nömrəli tam orta məktəb

Qeyd olunub ki, ötən əsrin sonlarında xalqımıza qarşı törədilmiş Xocalı faciəsindən 24 il keçir. Bu faciə iki yüz ilə yaxın bir müddətdə erməni şovinist millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı, ən qanlı səhifəsidir. Faciənin törədilməsində məqsəd torpaqlarımızı ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda apardığı mübarizə əzmini qırmaq idi. Lakin xalqımızın qəhrəman oğul və qızları erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə mərdliklə mübarizə aparıb, qəhrəmanlıq tariximizə şanlı səhifələr yazıblar.

İnteraktiv dərsdə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Xocalı şəhərində törədilən soyqırımı barədə şagirdlərə ətraflı məlumat verilib, bu faciəyə ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verildiyi vurğulanıb, Azərbaycan Prezidentinin Xocalı həqiqətlərinin dünyaya çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlərdən bəhs olunub.

Bildirilib ki, Azərbaycan Respublikasının apardığı xarici siyasət nəticəsində dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirilir, faciənin səbəbləri haqqında dünya ictimaiyyətinə ətraflı məlumatlar verilir. Doğma yurdlarından didərgin düşmüş və Azərbaycanın 48 rayonuna səpələnmiş Xocalı sakinləri dünya xalqlarına, dövlətlərinə, beynəlxalq təşkilatlara haqq-ədaləti və həqiqəti müdafiə etmək, Xocalıda törədilmiş soyqırımını pisləmək barədə müraciətlər edirlər. Xocalı faciəsi ən dəhşətli hərbi cinayətlərdən sayılmaqla yanaşı, həm də insanlığa qarşı törədilmiş soyqırımıdır. Vaxt gələcək, bu tarixi faciənin iştirakçısı olmuş cinayətkarlar ədalət məhkəməsi qarşısında cavab verməli olacaqlar. Çünki tarix heç nəyi unutmur.

**Səbuhi HƏSƏNOV**

---

*Mənə ordu gərəkdir xəstəyə dərman kimi,*
*Mənə ordu gərəkdir nəfəs kimi, can kimi,*
*Mənə ordu gərəkdir sarsılmaz cahan kimi.*
*Ordum varsa, yurdum var,*
*Ordum yoxsa, yurdum yox!*

**Ulu öndər Heydər ƏLİYEV:** *Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının Milli Ordusu – respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarının müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır.*

# Azərbaycan Ordusu tarixi ədalətin bərpasına hər an hazırdır



XX əsrin sonlarında yenidən müstəqillik qazanmış Azərbaycan xalqına öz suverenliyini qorumaq üçün dövlətin əsas atributlarından biri olan güclü ordu lazım olub. Ancaq bədnam qonşularımızın təcavüzü nəticəsində qondarma Dağlıq Qarabağ problemi ortaya atılıb və dövlətimiz ordu quruculuğunu ərazi bütövlüyünü təmin etməklə paralel həyata keçirmək məcburiyyətində qalıb. Belə şəraitdə psixoloji cəhətdən güclü, həmçinin yüksək hazırlıqlı ordunun yaranması günün ən vacib məsələsi kimi ortaya çıxıb. Ümummilli liderimiz Heydər Əliyevin böyük səyləri ilə Azərbaycan Ordusu formalaşmağa başlayıb və görülən işlər nəticəsində ordumuz regionun ən qüdrətli silahlı qüvvələrindən birinə çevrilib. Bu gün fəxrlə deyə bilərik ki, müstəqil Azərbaycanın Silahlı Qüvvələri istənilən hərbi tapşırığı qısa müddətdə və yüksək peşəkarlıqla yerinə yetirməyə qadirdir.

Hərbi-strateji baxımdan region üçün böyük əhəmiyyət kəsb edən Naxçıvan Muxtar Respublikası ordu quruculuğu sahəsində həyata keçirilən ciddi və məqsədyönlü tədbirlər nəticəsində, sözün həqiqi mənasında, düşmən qarşısında alınmaz qalaya çevrilib. Regionda ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər öz bəhrəsini verib, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvandakı hərbi birləşmələrinin maddi-texniki bazası gücləndirilib, hərbi hissələrdə hərtərəfli xidmət şəraiti yaradılıb. Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrin maddi-texniki təminatı müasir tələblər nəzərə alınaraq möhkəmləndirilir, əsgəri yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır. Ordumuzun birləşmə və hissələrinin döyüş qabiliyyəti və peşəkarlığı artırılır. Naxçıvanın müdafiəsinin etibarlı təminatı hər zaman diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə atılan ən mühüm addımlardan biri də Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, Silahlı Qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusunun yaradılmasıdır. Hərbi hissələrə hər səfərimiz zamanı daha bir yeniliyin şahidi oluruq və bir daha bu qənaətə gəlirik ki, indi bizim bir əsgərimiz düşmənin on hərbçisinə cavab verməyə qadirdir. Ordu həyatında kimliyindən asılı olmayaraq, öz peşəsinin əzəmətliliyinə görə qürur hissi keçirməyən hərbçi yoxdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Soyuq döyüş bölgəsində müasir əsgəri yaşayış kompleksinin istifadəyə verilməsi zamanı demişdir: ***"Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu müstəqil ordu quruculuğu strategiyası bu gün ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Nəticədə, ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər ardıcıl xarakter almışdır. Hər il yeni əsgəri yaşayış kompleksləri istifadəyə verilir, Silahlı Qüvvələrimiz ən müasir silah-sursatla təmin olunur, Azərbaycan Ordusunun döyüş qabiliyyəti artırılır. Bu gün ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlər dövlət müstəqilliyimizin qorunması ilə yanaşı, həm də işğal altındakı torpaqlarımızın azad edilməsinə xidmət edir. Artıq muxtar respublikada yerləşən ordu, hərbi hissə və birləşmələr sərhədlərimizi etibarlı qorumaqla yanaşı, həm də işğal altındakı torpaqlarımızı azad etməyə qadirdilər".***

Bu gün düşmən tərəfi düşünülməyən, "cəsarətli" addımlar atmaqdan çəkinməyə vadar edən amillərdən biri də regionda güclü hərbi potensiala malik Naxçıvan faktorunun olmasıdır. Çünki hərbi əməliyyatlar başlayarsa, düşmən ən ağır zərbəni 90-cı illərdə olduğu kimi Naxçıvandan ala bilər. Naxçıvanı düşmən qarşısında güclü edən orduya göstərilən dövlət qayğısı, nizam-intizama ciddi əməl olunması, kadr seçimində zərgər dəqiqliyi göstərilməsidir. Bu gün ordu quruculuğuna xüsusi diqqət göstərilir, bu istiqamətdə görülən işlər birbaşa muxtar respublika rəhbərinin nəzarəti altında və qayğısı ilə həyata keçirilir. Bunun nəticəsidir ki, öz inkişafı və tərəqqisi ilə bu gün düşmənə gözdağına çevrilən Naxçıvanda son 20 ildə etibarlı müdafiə təminatı ilə bağlı sistemli tədbirlər həyata keçirilib. Ali Baş Komandan Naxçıvana səfərləri zamanı hərbi hissələrdə olarkən ordu quruculuğu sahəsində görülən işləri yüksək qiymətləndirərək deyib ki, Naxçıvanın müdafiə potensialı çox yüksək səviyyədədir. Naxçıvanın müdafiəsi üçün hər şey edilib və Naxçıvan özünü istənilən hücumlardan tam şəkildə müdafiə etməyə və eyni zamanda istənilən hərbi vəzifəni icra etməyə qadirdir.

Yazının hazırlanması Xocalı soyqırımının ildönümü günlərinə təsadüf edir. Üzərindən əsrin az qala dörddə biri qədər zaman keçsə də, xalqımız törədilən cinayətləri, qanlı hadisələri unutmayıb. İndi o günləri xatırlayanda ordumuzun bugünkü qüdrəti ilə fəxr etməmək, qürur hissi keçirməmək olmur. Ona görə qürur hissi keçiririk ki, bu gün Azərbaycan sərhədlərində bu xalqın təpədən-dırnağa silahlanmış, vətənpərvər oğulları, peşəkar hərbçiləri dayanır. Təəssüf ediləcək məqamlar da var. Onlardan biri odur ki, əgər ötən əsrin 90-cı illərinin əvvəllərində bugünkü qüdrətə malik nizami ordumuz, milli liderimiz olsaydı, nə Xocalı soyqırımı törədilə, nə də torpaqlarımızın 20 faizi işğal oluna bilərdi.

İndi Naxçıvanın düşmənlə həmsərhəd hərbi məntəqələrində alınmaz qalalar olan müdafiə istehkamları yaradılıb, bu istehkamlar ən müasir silahlarla təchiz edilib. Bu mənzərəyə bir də səngərlərdə ayıq-sayıq dayanan dağ vüqarlı əsgərlərimizin qələbə əzmini, döyüşkənlik yağan çöhrələrini, əzəmətli baxışlarını da əlavə etsək, tam qətiyyətlə deyə bilərik ki, bütün bunları dəyişiklik yox, ordu quruculuğu sahəsində inqilab adlandırmaq daha doğru olar. Möhtəşəm inqilabın ideoloqu isə ulu öndərimizdir. Bu həm də ordu quruculuğu sahəsində Heydər Əliyev ideyalarının qədim oğuz-türk məskənində, Naxçıvanskilər, Kəngərlilər yurdunda təntənəsi, zəfəridir. İndi Vətənimizin keşikçiləri ilə səngərlərdə etdiyimiz söhbətlərin bir yekunu, bir nəticəsi, bir ortaq məxrəci var. Bu da ondan ibarətdir ki, müharibə başlasa, qələbə qazanmaq çox qısa vaxt aparacaq. Düşmən bu gün ən müasir silahlarla təchiz edilmiş ordumuzun, qəlbi vətən eşqi ilə alışıb-yanan, tökülən qanları yerdə qoymaq istəməyən vətən oğullarının qarşısında tab gətirə bilməz. Lap ötən əsrin sonlarındakı kimi, havadarları tökülüb gəlsə belə. Bu gün, hələlik, keşik çəkilən səngərlər sabah qələbəyə aparacaq cığırlardır. Onların sonu mütləq qələbə zirvəsi olmalıdır. Başqa yol yoxdur. Yaxşı ki indi düşmənlə üzbəüz, əli tətikdə, gözü nişangahda olan, Vətənə keşik çəkən igid oğullarımız var. Bilirik ki, sərhədlərimiz əmin əllərdədir.

Yol seçmək mübarizənin ən əsas cəhətidir, – deyirlər. Azərbaycanı da o zaman düşmən gördülər ki, o, öz yolunu seçdi: azadlıq, haqq-ədalət, dövlətçilik, millətlər arasında bərabərlik, öz müqəddəratını əldə etmək yolunu. Və bu zaman qanlı hadisələr təkrar olundu. Tarixin müxtəlif dövrlərində azadlıq fədailərinin, günahsız insanların qanları tökülüb. 1992-cı ilin Xocalı faciəsində də tarix təkrar olundu. Yaxın tariximizə nəzər salsaq, belə hadisələrin dəfələrlə baş verdiyini görərik. Ancaq bu hadisələr yaddaşlarda təkcə faciə kimi deyil, həm də azadlığa doğru gedən yolda atılan qətiyyətli addımlar kimi qalacaqdır.

**XX əsrin sonlarında bu xalq bir daha sübut etdi ki, repressiyalara, sürgünlərə, həbslərə, hədə-qorxulara baxmayaraq, azadlıq yolundan dönməyib, əksinə, qəlblərdə istiqlal alovu daha da şölələnib. Hürriyyət oğruları Vətəni parçalanan, malı, varı, dövləti yağmalanan bir xalqın ən qiymətli xəzinəsini – azadlıq arzusunu oğurlaya bilməyiblər. Və bu xalq tamamilə məhv edilsə, bir nəfər sağ qalsa belə, o, yenə azad olmağı tələb edəcək.**

***İnamsız bir qartalın qanadları gərilməz,***
***Döyüşsüz azadlığın meyvələri dərilməz,***
***Şəhidsiz bir millətin vətən ruhu dirilməz,***
***Oğullar ola-ola, necə deyim mərdim yox.***
***Ordum varsa, yurdum var,***
***Ordum yoxsa, yurdum yox!***

**Səbuhi HÜSEYNOV**

# Xocalı

**işğaldan əvvəl**



**işğaldan sonra**



***1 yanvar 1989-cu ilin məlumatına görə Xocalının əhalisi 20,9 min nəfər olub.***

***Xocalı rayonu 1991-ci il noyabrın 26-da Yuxarı Qarabağın dağətəyi hissəsində qədimdən azərbaycanlılar yaşayan Xocalı qəsəbəsi və onun ətrafındakı torpaqların hesabına yaradılıb. Sahəsi 93688 hektardır.***

***Xocalı rayonu əlverişli coğrafi mövqeyə, münbit torpaqlara malikdir. Dağlıq ərazilərin dağətəyi zona ilə birləşdiyi yerdə məskən saldığına görə burada insanların yaşayış şəraiti üçün tələb olunan münbit torpaqlar, su ehtiyatları boldur. Dəniz səviyyəsindən 580 metr hündürlükdə yerləşir.***

***Xocalı rayonu Şuşa-Ağdam yolunun üstündədir. Xocalı ilə ölkəmizin paytaxtı Bakı şəhəri arasında olan məsafə 375 kilometrdir.***

***Xocalı rayonu ərazisində Zərinbağ və Ağçay üzlük daşı yataqları, ehtiyatları 12 milyon 434 min ton olan qırmadaş və əhəng istehsalına yararlı əhəngdaşı yatağı, kərpic istehsalına yararlı Xocalı gil yatağı, ehtiyatları 7 milyon 280 min $m^3$ olan qum-çınqıl qarışığı yatağı, istismar ehtiyatları 9 min $m^3$/gün olan yeraltı şirin su yatağı mövcuddur.***

***Xocalı rayonu ərazisindəki Bədərə çayı hövzəsində fıstıq-palıd meşələri xüsusi olaraq qorunurdu.***

Milli qəhrəmanlarımız

## Hər kəsə qismət olmayan ömür

*(Oçerk)*

*Dalğın baxışları ilə gözlərini şəhid oğlunun məzarına zilləmiş ağsaçlı bir ananı bir qədər kənardan seyr edirəm. Ana başını qaldırıb ətrafa baxır. Onunla çoxdankı tanış kimi başımla salamlaşıram. O da salamıma elə o tərzdə cavab verir. Gözlərinin dərinliklərində bir nisgil, intizar görürəm. Bir anda bu mənzərəni qürurla baxan gözlər əvəz edir. Ana belə oğul böyütdüyünü sanki indi xatırlayır. Yaqin ki, onu doğma torpaq uğrunda ölüm-dirim müharibəsinə göndərdiyi gün yadına düşür.*

Baxışlarımız toqquşur. Bu baxışlar qəhrəman oğlu ilə şərəf duyan ananın baxışlarıdır. Gecələri başının üstündə laylay dediyi, doğma torpağı sevməyi öyrətdiyi, vətənə layiq gənc kimi böyütdüyü oğlunun həyat yolu gözü önündən keçir, – deyə düşünürəm. Onu yaşadığı hisslərdən ayırmamaq üçün bir kənara çəkilirəm. Ana tək deyil. Yanındakı qadın şəhid bacısıdır.

...Şəhidlər xiyabanından bir yerdə çıxırıq. Zemfira müəllimə Şəhidlər xiyabanının çıxışında geri dönərək bir qədər dayanır. Oğlunun və onunla birlikdə uyuyan şəhidlərin ziyarətindən sonra ona təskinlik vermək istəsəm də, buna gücüm çatmır. Zemfira müəllimə qəddini dikəldir, söhbətə başlayır:

– Dünyanın müxtəlif ölkələrində baş verən, böyük fəlakətlərə səbəb olan müharibələr hələ heç kimə xeyir gətirməyib. Ancaq bizim ölkənin qatıldığı müharibə doğma torpaqlarımız uğrunda xalqımızın apardığı haqq mübarizəsidir. Bütövlüyümüzü, müstəqilliyimizi, dövlətçiliyimizi qoruyanlar bu mübarizəyə atılıblar. Ümumilikdə, müharibələrə gəldikdə düşünürəm ki, bütün bunlar ağır itkilərlə nəticələnsə də, sülhsevər bəşəriyyət tərəfindən qətiyyətlə pislənilsə də, sağlam təfəkkür hələ qalib gələ bilməyib. Hələ ötən əsrin ortalarında Səməd Vurğun yazırdı: Qalib gələcəkmi cahanda kamal? Elə digər şair və yazıçılarımız da dəfələrlə bu mövzuya müraciət ediblər. Kütləvi insan qırğınına səbəb olan müharibələrin qarşısının alınması üçün dünyanın dahiləri əllərindən gələni etsələr də, qırğınlar yenə davam edir. Müharibələrin ağrıları isə daha çox analar, bacılar çəkirlər.

* * *

O, 1958-ci ildə anadan olmuşdu. Onda ailələri Bakı şəhərində yaşayırdı. Bir qədər sonra Naxçıvana qayıdıblar. İbrahim Naxçıvanda boya-başa çatıb. O, hələ orta məktəbdə oxuduğu illərdə bir sıra şəxsi keyfiyyətləri ilə həmyaşıdlarından seçilib. Həyatının sonrakı dövrlərində



bu keyfiyyətlər İbrahimi tanıyanlara sevdirən amillər olub. Orta məktəbi yüksək qiymətlərlə bitirib. Müstəqil həyata əmək cəbhəsində qədəm qoyub. İbrahim iki il sovet ordusu sıralarında hərbi xidmətini başa vurub. Rusiya Federasiyasının Moskva şəhərində yaşayan gənc həmyerlimiz Bakı Dövlət Universitetinin Tarix fakültəsində qiyabi yolla təhsilini davam etdirməyə başlayıb.

Moskvada Azərbaycanda baş verən hadisələri izləyən gələcək Milli Qəhrəman doğma Vətənə qayıtmağı qərara alıb. Bu qayıdışla onun cəbhə həyatı başlayıb. Bir sıra döyüş bölgələrində – Ağdərədə, Zəngilanda, Füzulidə erməni faşistlərinə qarşı döyüşlərdə könüllü vuruşan eloğullarımıza nümunə olub. Ancaq könüllü batalyonların ləğvi İbrahimin arzularına müvəqqəti olaraq sədd çəkir. Məsələ onda idi ki, İbrahim Məmmədovun Rusiya Federasiyasının vətəndaşı olması onun Azərbaycan Ordusu sıralarına qəbul edilməsinə maneə yaradır. Qəlbi doğma torpaqlarımızın azad edilməsi istəyi ilə döyünən İbrahim çıxış yolunu ulu öndərimiz Heydər Əliyevə müraciət etməkdə görür.

**Haşiyə:** Bir neçə gün İbrahim özündə olmayıb. Küçəyə çıxır, evə qayıdır, ailə üzvlərinin suallarına könülsüz cavab verirmiş. Yemək rejimi də pozulubmuş. Buna 1993-cü il noyabr ayının 8-də son qoyulub. Ulu öndərimiz Heydər Əliyev İbrahimin Azərbaycan Ordusu sıralarına qəbul edilməsinə razılıq verir. O gün İbrahim leytenant rütbəsində Azərbaycan Ordusu sıralarına qəbul edilir.

* * *

Bir ay sonra İbrahim Məmmədov bölük komandiri təyin olunur. Neftçalada yerləşən hərbi hissə 1994-cü ilin fevralında Goranboya göndərilir. Kəlbəcər ərazisində gedən döyüşlərdə iştirak edir. İbrahimin rəhbərliyi ilə bu döyüşlərdə igid eloğullarımız böyük qəhrəmanlıqlar göstərir, torpaqlarımızın müdafiəsində canlarından belə, keçməyə hazır olduqlarını nümayiş etdirirlər. Həmin döyüşdə İbrahim düşmənin bir ədəd zirehli texnikasını, sonra isə 40 nəfər düşmən əsgərini mühasirəyə alaraq məhv edir. Bundan daha da azğınlaşan düşmən hücumlarını bir qədər də genişləndirir. Lakin qəhrəman eloğullarımız bu hücumların qarşısını yerindəcə alır, düşmən böyük itki ilə geri çəkilir. İbrahim Məmmədovun əsl komandirlik bacarığı bu döyüşlərdə üzə çıxır. Əsgərlərimiz onun simasında bütün qanı və canı ilə doğma torpağa bağlı hərbçi görürlər. O, düşmən qarşısında mərdliklə dayanan, ölümün gözünə dik baxan əsgərlərimizin mənəvi-psixoloji durumunu düzgün dəyərləndirməyi diqqətdə saxlayır, hər bir əsgərin yaxın sirdaşına çevrilir.

İbrahim Məmmədovun döyüş yolunda yaddaqalan hadisələr çoxdur. Bu hadisələrin hər birində vətən torpağının düşmənlərdən azad olunması üçün şücaət və qəhrəmanlıq var. Bugünkü gənclik üçün örnək olan həmin hadisələrdən biri 1994-cü il fevral ayının 16-da Kəlbəcər rayonunun strateji əhəmiyyətli Yanşaq kəndi ərazisindəki döyüşlərdə onun və yoldaşlarının göstərdikləri qəhrəmanlıqdır. İbrahim Məmmədov həmin gün düşmənin iki tankını məhv etdikdən sonra üçüncü tankla üz-üzə gəlir, həmin tankı da məhv edir, qeyri-bərabər döyüşdə şəhidlik zirvəsinə ucalmaqla öz yoldaşlarını ölümdən qurtarır.

Xalqımızın bu igid oğlunun rəhbərliyi ilə ordumuzun kiçik bir qüvvəsinin belə qəhrəmanlığı bir neçə gün respublikamızda çap olunan qəzetlərin səhifələrində işıqlandırılır, televiziya kanallarında göstərilir. Qəzet yazıları və televiziya verilişləri vasitəsilə belə övlad böyüdən valideynlərə minnətdarlıq hissləri ifadə olunur.

Bir neçə ay sonra qəzetlərdə İbrahim İsmayıl oğlu Məmmədova "Azərbaycanın Milli Qəhrəmanı" adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı dərc edilir. 20 iyun 1994-cü il tarixli bu fərmanla xalqımızın ümummilli lideri Heydər Əliyev neçə ay əvvəl Azərbaycan Ordusu sıralarına qəbul edilmək üçün ondan kömək istəyən bir qəhrəman Azərbaycan övladını ölkənin ən böyük mükafatına layiq bilir.

* * *

Zemfira xanım deyir ki, İbrahim 6 bacının 1 qardaşı olsa da, onu ərköyün böyütməmişdik. Ancaq rəhmətlik atası İsmayıl müəllim oğlumuzun sərbəst böyüməsini istəyirdi, onun müstəqil qərarlar qəbul etməsinə hörmətlə yanaşırdı. İbrahimin belə qərarlar qəbul etməsi ətrafımızda, qohum-qonşu arasında birmənalı qarşılanmırdı. Məsələn, çoxları deyirdi ki, ziyalılar ailəsinin bir oğlan övladı olan İbrahim orta məktəbi yaxşı qiymətlərlə bitirsə də, nə üçün ali məktəbi yox, zavodda fəhlə işləməyi üstün bildi? Mən bir ana, bir müəllim kimi oğlumun hərəkətlərini təbii qəbul etmişəm. Və bu gün o həyatda olmasa da, peşman deyiləm. Bütün analara sözüm odur ki, böyütdüyümüz övladların qəlbində Vətənə sevgi, yurda məhəbbət, el-obaya hörmət hissləri yarada bilsinlər. İbrahim belə oğul idi. Bir neçə gün əvvəl Moskvada yaşayan qızı İradə gəlmişdi. Deyir ki, nənə, mən İbrahim Məmmədov kimi bir insanın övladı olmağımla qürur duyuram. Moskvadakı qonşularıma, dostlarıma deyirəm ki, mənim atam ərazi bütövlüyümüz uğrunda şəhid olub. Bu, hər kəsə nəsib olan ömür deyil.

* * *

**Yazını başa çatdıranda 5 yaşlı nəvəm yazı masama yaxınlaşıb İbrahimin şəklini əlinə götürdü.**

**– Baba, bu kimdir ki?**

**– Qəhrəmandır.**

**– Qəhrəman necə olur ki?**

**– Böyüyəndə bilərsən, – deyə cavab verirəm və fikirləşirəm ki, kaş bugünkü övladlarımız böyüyəndə başqa sahələrdə qəhrəman olsunlar.**

**✍ Muxtar MƏMMƏDOV**

## İnşa yazı müsabiqəsinə yekun vurulub



**Heydər Əliyev adına Hərbi Liseydə kursantlar arasında keçirilən və Xocalı faciəsinin 24-cü ildönümünə həsr olunmuş "Torpaq, uğrunda ölən varsa Vətəndir" adlı inşa yazı müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**

Mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev çıxış edərək muxtar respublikada təhsilə, eləcə də böyüməkdə olan nəslin hərtərəfli inkişafına göstərilən dövlət qayğısından danışıb. Bildirilib ki, belə müsabiqələr gənclərin istedadlarının üzə çıxarılmasında və onların özünüifadə qabiliyyətlərinin artırılmasında böyük əhəmiyyət kəsb edir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Elxan Babayev Xocalı faciəsinin 24-cü ildönümünə həsr olunmuş inşa yazı müsabiqəsinin keçirilməsinin kursantların vətənpərvərlik ruhunda tərbiyəsində böyük rol oynadığını bildirib. Qeyd olunub ki, bu müsabiqənin keçirilməsində məqsəd Xocalı gerçəkliklərini, vətən, yurd sevgisini, torpağa bağlılığı gənclərin sözü ilə təqdim etməkdən ibarət olub.

1-22 fevral tarixlərində keçirilən müsabiqəyə 50-yə yaxın inşa təqdim edilib. Münsiflər heyətinin yekun qərarına əsasən, liseyin birinci kurs kursantı Turqay Məhərrəmli birinci yeri tutub. İkinci yerə üçüncü kurs kursant Musa Əsgərovun, üçüncü yerə isə üçüncü kurs kursant Qabil Haqverdiyevin inşa yazıları layiq görülüb.

Hərbi liseyin rəisi, general-mayor Elman Orucov çıxış edərək kursantlar arasında belə müsabiqələrin keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Sonra qaliblərə diplomlar təqdim edilib.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 173